■ Məhəmməd Rəhmanifər

**Məhəmməd Rəhmanifər 1979-cu ildə Güney Azərbaycanın Xoy şəhərində anadan olub. Orta təhsilini Xoyda tamamladıqdan sonra ali təhsil üçün 1998-ci ildə Təbrizə gəlir. Təbriz universitetinin dil-ədəbiyyat fakültəsini bitirib.**

**Güneydə istedadlı ədəbiyyat tənqidçisi kimi tanınan Rəhmanifərin 2000-ci ildə "İran türklərinin əski tarixinə yeni bir baxış" adlı ilk kitabı bu günədək o tayda 6 dəfə təkrar yayımlanıb. 2014-cü ildə onun ustad Şəhriyarın yaradıcılığından bəhs edən "Şəhriyarla birlikdə özgələşməkdən özləşməyə doğru" kitabı çap olunub. Bu kitabda Şəhriyarın yaradıcılığı fərqli və modern bir metodla araşdırılır. Elm adamları və sadə oxucular tərəfindən maraqla qarşılanan bu kitab da təkrar nəşr olunub. Bunlardan başqa "Özgə" və fars dilində "Damu" (cəhənnəm) kitabları da onun qələminə məxsusdur. Keçən il Bakıda Şəhriyarın anadan olmasının 110 illiyinə həsr edilmiş yubiley tədbirinin iştirakçısı olub.**



Anar və Məhəmməd Rəhmanifər

# Anarın "Dantenin yubileyi" povestində inandırıcılıq xüsusiyyəti




Bu qısa yazıda Çağdaş Azərbaycan yazıçısı Anar Rzanın "Dantenin Yubileyi" povestində inandırıcılıq xüsusiyyəti araşdırılır, bu xüsusiyyətin səviyyəsi və hansı faktlardan asılı olduğundan bəhs edilir.

İnandırıcılıq: Əsərin oxucular tərəfindən maraqla qarşılanması müxtəlif amillərdən asılı ola bilər. Bu arada əsərin içində gedən rəvayətin (dastanın) çəkici olması əsas rol oynasa da, həmən rəvayətin inandırıcı olması yüksək önəm daşıyır. Əlbəttə bir əsərin inandırıcı olması yalnız onun rəvayətində gerçəkləşmir. Bəlkə, onunla birlikdə xarakterlərin obrazında, yerlərin vəsfində, yaranmış təsvirlərdə, hətta dialoqlarda da öz yerini tapmalıdır.

İnandırıcılıq reallıqdan fərqlidir. Demək hansısa bir olayın inandırıcı olması onun real olmasından asılı deyil. Real olmayan olayların inandırıcı olmaları mümkün bir hal sayılır. Borxes Bualonun diliylə deyir: "Yazıçının yalan danışması heç də önəmli deyil, danışdığı yalanın inandırıcı olması önəmlidir". Yaponiyalı yazıçı Haruki Murakaminin dastanlarının əsas özəlliyi ondadır ki, bu dastanların qeyri-adi rəvayətlərinə baxmayaraq, onların xarakterləri tam inandırıcı mahiyyət daşıyırlar. Bu özəlliyi biz Anarın "Mən, Sən, O və Telefon" adlı hekayəsində aydınca görürük. Beş subay yoldaş bir-bir evlənirlər. Dördüncü yoldaşın toy gecəsində Seymur özünü daha yalnız hiss edir. Bunu yoldaşları da başa düşürlər. Buna görə zarafat üzrə olsa da elə o saat telefonla Seymura qız tapmaq qərarına gəlirlər! Bu heç də çətin iş deyildi. Sadəcə bir telefon nömrəsi lazım idi, bir də iki qəpiklik. İki qəpiklik məsələsi çox rahat həll oldu. Yoldaşların hərəsi bir rəqəm söylədilər, Seymur isə nömrəni yığdı və bu iş bir evlənməyə xətm olmasa da evlənmək şəraitini təmin edən bir tanışlığa vardı! Burada və bundan sonra hekayənin rəvayəti nə qədər qeyri-adi görünsə də tam inandırıcı və tam çəkici bir halda irəli sürülür.

"Dantenin yubileyi"-ndə inandırıcılıq səviyyəsi: Hər sözdən öncə bu əsərin inandırıcılıq səviyyəsini aşağı endirmək gücünə malik olan, amma, bu işi görə bilməyən bir amilə işarə etmək istəyirəm. O da bu əsərin mətnaltı mənasında üzə çıxan humanist baxışdır. Əlbəttə humanist baxış, gərəkli olaraq, əsərin inandırıcılıq səviyyəsini aşağı endirə bilməz. Amma nəzərə alsaq ki, Feyzulla kimi adsız-sansız, yazıq bir insanı şanlı-şöhrətli bir ailədə doğulmuş, həyatında böyük-böyük uğurlara nail olmuş və şöhrət qazanmış Anarın kimi bir yazıçının qələmindən oxuyuruq, vurğuladığım məsələ özünü aşkar edər. Anara necə inanmaq olar? Axı Anar Feyzullanın çəkdiklərini çəkməyib ki! Feyzullanın sosial vəziyyəti Anardan fərqlidir. Hətta mənə elə gəlir ki, Feyzullanın yaşayışı və təcrübələri Anarın yaşayışı və təcrübələrinin tərsinədir və buna görədir ki, biz bu əsəri humanist bir əsər adlandıra bilirik. Yoxsa, bu əsər Feyzullanın öz əli ilə yazılsaydı yaxud ona tay bir adamın əli ilə yazılsaydı bu əsəri necə humanist bir əsər adlandırmaq olardı?! Feyzulla kimi bir insan öz acılarını belə bir əsərdə dilə gətirsəydi, əlbəttə, ki, onun dediklərinə çox rahat inana bilərdik. Buna baxmayaraq, onda daha bu əsəri humanist bir əsər kimi dəyərləndirə bilməzdik. Qalsın ki, Feyzulla kimi bacarıqsız bir xarakter belə bir əsər yarada bilməzdi. Yarada bilsəydi daha Feyzulla xarakterini daşımazdı, bəlkə Anar kimi bacarıqlı bir sənətkar olardı.

Vurğuladığım kimi Anar bu əsərdə özünə zidd bir xarakter yaradıbdır. Buna baxmayaraq bu əsərdə inandırıcılıq səviyyəsi elə humanistlik səviyyəsi qədər yüksəkdir. Bu isə Anar kimi bacarıqlı bir sənətkarın hünəridir. Azərbaycan realizmi Mirzə Cəlil Məmmədquluzadə kimi nəhəng dayaqlara söykənir. Anar isə həyatın acı həqiqətlərini təsvirə çəkməkdə bu məktəbin bacarıqlı təmsilçilərindən sayılır.

Yeri gəlmişkən vurğulamalıyam ki, Azərbaycan ədəbiyyatı ən qədim zamanlardan belə, təsvir yaradan ədəbiyyat olub. Örnək olaraq deyək ki, dünya şeirində Gəncəli Nizami və Təbrizli Şəhriyar güclü təsvirlər yaradıblar. Bir sözlə desəm Anar Rza böyük Nizamidən tutmuş Mirzə Cəlil kimi dahilərin varisidir. nun əsərlərində biz Azərbaycan ədəbiyyatının keçmişini, habelə indisini görürük.

Yuxarıdakı sözləri boş-boşuna dilə gətirmədim. Realizm və təsvir yaratma bu əsərin - "Dantenin yubileyi" - inandırıcılıq səviyyəsini inanılmaz dərəcədə yüksəyə qaldırır. Anar Feyzulla kimi xarakterlərin yaşayış təcrübələrini kəlmə gücü ilə bizə anlatmağa çalışmır. O bir rəssam kimi bunları bizim gözlərimizin qarşısına qoyur. Bizsə öz gözlərimizlə gördüklərimizə inanırıq. Hətta, özümüzü o təsvirlərin içində hiss edirik. Anar bizimlə xarakterlərin arasında olan məsafəni aradan qaldırır. Bizi Feyzullanın yerinə qoyur. Beləliklə biz onun yaşayışını sadəcə oxumuruq, bəlkə yaşayırıq da!

Anar yaratdığı əsərlərində xarakter yaratmaq şərti ilə öz adını itirmək bacarığına malikdir. Biz onun adını kitabın üzündə görürük. Amma kitabı oxumağa başladıqda, daha doğrusu onun yaratdığı dünyaya ayaq basdıqda daha onun kim olduğunu unuduruq. Bu isə əsərin inandırıcı olmağı deməkdir: yazıçıdan qırılmaq, yazıya bağlanmaq. İnandırıcı bir əsər yaratmaq üçün yazıçı ilə xarakterlərin eyni durumda olmaları gərəkli deyil, yazıçının ortadan çıxması lazımdır. Oxucuyla xarakteri başbaşa buraxmaq lazımdır.

"Dantenin Yubileyi"-ndə oxucu Anarı unudur. Beləliklə o Feyzullaya çatır. Daha Anar ortada deyil ki, oxucu onları bir-birləri ilə tutuşdursun. Anar öz səmimi qələmi ilə hər gün küçə-bacada gördüyümüz, amma görməzdən keçdiyimiz Feyzulla kimi xarakteri bizim gözlərimizin qabağına gətirir, sonra isə özü səhnəni tərk edir. Arada, bir biz qalırıq bir də Feyzulla! Beləliklə, Feyzulla ilə birlikdə onun yaşayış dünyasına ayaq qoyuruq. Onunla birlikdə yaşayışın acı gerçəkləri ilə qarşılaşırıq.

"Dantenin Yubileyi"-ni oxuduqca duyğulandım, gahdan dodaqlarıma acı gülüş oturdu, gahdansa gözlərimə kədər yaşı qondu. Demək, Feyzulla ilə birlikdə onun bütün acılarını bütün duyğularını yaşadım. Elə bildim illər boyudur bu xarakteri öz içimdə daşıyıram. Nə yaxşı ki, elimizin Anar kimi böyük yazıçıları vardır!